**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLİYEV ŞƏFA TİFLİS OĞLU**

# XÜSUSİ İQTİSADİ ZONALARIN TƏŞKİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə**

**İqtisad elmləri doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad elmləri doktoru, professor
**Əli Qulu oğlu Allahverdiyev**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti

Müdafiə «18» noyabr 2015-ci ildə saat 14-00-da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad elmləri doktoru elmi dərəcəsi verilməsi üçün D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» oktyabr 2015-ci ildə göndərilmişdir.

**D 02.051 dissertasiya**
**şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru** **dos. M.M.Sadıqov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Dünya iqtisadiyyatı qloballaşdıqca milli iqtisadiyyatların davamlı inkişafının təmin edilməsi problemləri daha da artmaqdadır. Dünya iqtisadi proseslərinin transformasiyası və daha mütərəqqi inteqrasiya kanallarının formalaşması sürətlənməkdədir. Dünya iqtisadiyyatında müasir tendensiyalar milli iqtisadiyyatların rəqabətqabiliyyətinin artırılmasını, iqtisadi inkişaf proseslərinin davamlılığını, milli iqtisadiyyatın maliyyə böhranları və iqtisadi tənəzzüllərə qarşı güclü immunitetinin olmasını şərtləndirir. Sosializm sisteminin süqutundan sonra yeni yaranmış dünya dövlətlərində iqtisadi islahatlar əsasən başa çatdırılmış və ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması üçün milli iqtisadi inkişaf modellərinin təkmilləşdirilməsi prosesləri güclənməkdədir. Bundan əlavə, dünya təsərrüfat sisteminin ən mühüm elementləri innovasiyalaşdırılma proseslərini yaşayır, bu baxımdan elm və innovasiya tutumlu müasir iqtisadiyyat sahələrinin yaradılması, bunlarla bərabər, ənənəvi iqtisadiyyat sektorlarının modernləşdirilməsi zərurəti artmaqdadır.

Dünya iqtisadiyyatının müasir prioritet istiqamətləri hər bir dövlətin iqtisadi siyasətində daha mütərəqqi iqtisadi mexanizmlərin və iqtisadi alətlərin tətbiqinə zərurət yaratmışdır. Dünyanın 135-ə qədər ölkəsində tətbiq edilmiş, bir çox ölkələrin iqtisadi inkişaf proseslərində tarixi nailiyyətlər qazanılmasında mühüm əhəmiyyət kəsb etmiş, investisiyaların və müasir texnologiyaların cəlbinə, sosial-iqtisadi problemlərin kompleks həllinə ciddi töhfələr vermiş və müasir dövrdə də məhsuldar fəaliyyəti ilə diqqət mərkəzində olan Xüsusi İqtisadi Zonalar (XİZ) bu kimi effektiv iqtisadi mexanizmlərdən hesab olunur.

Ölkələrarası inteqrasiya proseslərində, ümumiqtisadi inkişaf proseslərindən geri qalmış iqtisadiyyat sahələrinin və ayrı-ayrı ərazilərin inkişafının sürətləndirilməsində, iqtisadi islahatların daha da dərinləşdirilməsi və bazar iqtisadiyyatı infrastrukturunun gücləndirilməsində, sahibkarlığın inkişafının sürətləndirilməsində, müxtəlif strateji hədəflərin reallaşdırılmasında XİZ əlverişli və çevik iqtisadi-maliyyə və gömrük güzəştləri vasitəsilə qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirilməsinə imkan verir.

Dünya təsərrüfatında və mühüm iqtisadi proseslərində ön cərgələrdə yer almış və bir qrup sənayecə güclü inkişaf etmiş ölkələrin dövlət siyasətinin əsasında investisiyaların cəlbi və hərəkətinə, sahibkarlığın

inkişafına, milli məhsulların rəqabətqabiliyyətinin artırılmasına, mütərəqqi vergiqoyma və gömrük rejiminin tətbiqinə, ixracyönümlü sənaye sahələrinin inkişafına dair strateji hədəflər daha çox yer almışdır. Təsadüfi deyildir ki, həmin ölkələrin əksəriyyətində qeyd olunan prioritet vəzifələrin iqtisadi proseslərdə təcrübi reallaşdırılması üçün XİZ institutundan alternativ bir iqtisadi mexanizm kimi səmərəli istifadəyə nail olunmuşdur və müasir dövrdə də bu zonalar həmin ölkələrin iqtisadi sistemində əhəmiyyətli mövqeyə malikdirlər.

Artıq bir çox postsosialist və postsovet respublikalarının milli iqtisadiyyatları inkişaf etmiş bazar iqtisadiyyatı strukturuna malikdir və bu ölkələrin milli iqtisadiyyatlarının rəqabətqabiliyyəti yüksəlməkdədir. Bu istiqamətdə MDB dövlətləri içərisində rəqabətqabiliyyətinə görə ön cərgədə olan Azərbaycan bir çox mühüm sahələrdə makroiqtisadi sabitliyə nail olmuş və dünya təsərrüfat sisteminə sürətlə inteqrasiya etməkdədir. Azərbaycan müstəqil dövlət kimi iqtisadi inkişaf modeli formalaşdırmış, xarici ticarət konsepsiyası və uğurlu neft strategiyası hazırlamış, qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi üçün strateji vəzifələr qarşıya qoymuşdur. Ölkəmizdə müasir iqtisadiyyat sahələlərinin inkişafının sürətləndirilməsi, milli iqtisadiyyatın açıqlıq səviyyəsinin yüksəldilməsi, ölkənin investisiya və biznes mühitinin əsaslı şəkildə münbitləşdirilməsi, xarici ticarət fəaliyyətinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixracyönümlü məhsulların istehsalına imkan verən sənaye və emal müəssisələri şəbəkəsinin təşkili, ümumilikdə qeyri-neft sektoru sahələrinin iqtisadi potensialından daha səmərəli istifadə olunması XİZ institutunun Azərbaycanın milli iqtisadi sisteminə əlavə bir mexanizm kimi tətbiqinin zəruriliyini şərtləndirir.

Bundan əlavə, 2009-cu ildə Azərbaycanda XİZ haqqında müvafiq Qanun qəbul edilmiş və bu kimi zonaların tətbiqi ilə bağlı normativ sənədlər, rejim və qaydalar işlənib hazırlanmış və təsdiq olunmuşdur. Bu baxımdan, dünya ölkələrinin XİZ təcrübəsinin daha dərindən öyrənilməsi, beynəlxalq təcrübənin tədqiqi, XİZ-in yaradılması və fəaliyyəti üzrə Milli İqtisadi Strategiyanın işlənib hazırlanması və qəbul edilməsi, belə zonaların ölkənin iqtisadi sistemində yer ala bilməsi perspektivlərinin və bunlarla bağlı fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi kimi mühüm məsələlər də, tədqiqat işinin mövzusunun aktuallığına dəlalət edir.

**Problemin öyrənilmə səviyyəsi.** XİZ-in formalaşması və inkişafı prosesləri qədim tarixə malikdir. Bununla belə, bu kimi zonaların milli

iqtisadiyyatların inkişafında fəal iştirakı XX əsrin 30-cu illərinin ortalarından başlayıb. Bunlara baxmayaraq, XİZ üzrə fundamental tədqiqat işləri əsas etibarı ilə son 30-40 ilə təsadüf edir və bu proseslər son 20 ildə xeyli intensivləşmişdir. Tədqiqat işinin gedişində dünyanın müxtəlif ölkələrinin, alim və tədqiqatçılarının XİZ-lə bağlı elmi əsərlərinə, iqtisadi ədəbiyyatlara, fikir və mülahizələrə istinadlar edilmişdir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, xarici ticarət konsepsiyasının təkmilləşdirilməsi, ölkənin rəqabətqabiliyyətinin artırılması, bu proseslərdə strateji istiqamətlərin müəyyənləşdirilməsi, iqtisadiyyatın innovasiyalaşdırılması və XİZ-lərlə bağlı problemlərin araşdırılmasında azərbaycanlı iqtisadçı-alimlərdən A.A.Nadirov, Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, A.F.Musayev, Ə.C.Muradov, İ.H.Alıyev, Ş.H.Hacıyev, Ə.İ.Bayramov, M.X.Meybullayev, A.Ş.Şəkərəliyev, Ə.P.Babayev, R.T.Həsənov, M.A.Əhmədov, İ.A.Kərimli, T.Ə.Quliyev, Ü.Q.Əliyev, A.M.Məhərrəmov, A.H.Qəribov, Q.O.Kərimov, A.H.Tağıyev və digərlərinin əməyini qeyd etmək olar.

XİZ-in mahiyyəti və nəzəri-konseptual əsasları üzrə mühüm elementlərlə bağlı oxşarlığı olan, qarşılıqlı iqtisadi əlaqələri və asılılığı ilə seçilən iqtisadi nəzəriyyələrin, xüsusilə klassik iqtisadi nəzəriyyələrin formalaşdırılmasında mühüm rol oynamış klassik iqtisadçı-nəzəriyyəçilərdən və iqtisadçı-alimlərdən A.Smit, E.Hekşer, B.Olin, P.Sammuelson, V.Stopler, V.Leontyev, D.Rikardo, M.Porter, Y.Şumpeter, M.Frazye, R.Rey, Y.Toffler, P.Hal, S.Houv, C.Butler, C.Stiqlits və K. Lorensi xüsusilə qeyd etmək olar. Bu iqtisadçıların və tədqiqatçıların elmi əsərlərində mütərəqqi iqtisadi mexanizmlərin dövlətlərin iqtisadi siyasətində yer alması, dünya iqtisadiyyatının inteqrasiya proseslərinin inkişafı, xüsusilə ticarətin və iqtisadiyyatın sərbəstliyinin təmin olunması, iqtisadiyyatın kənar müdaxilələrdən qorunması ilə bağlı elmi mülahizələr müasir dövrdə də aktuallığını saxlamaqdadır.

Bir qrup alim-tədqiqatçılar - Y.Osipov, Q.Polyak, A.Markova, S.Boburin, V.Belolipetski, Y.Zotova, S.Borodina, D.Omarova, A.Neklessa, V.Kollontay, S.Popov milli iqtisadiyyatın davamlı inkişafı problemlərinə toxunmuşlar. Bundan əlavə, bir qrup MDB ölkələrinin iqtisadçı-alimlərinin və tədqiqatçılarının - Y.Avdokuşin, A.Bulatov, R.Zimenkov, A.Şeqlov, A.Jukova, Q.Smirnov, N.İqoşin, G.Semyonov, T.Danko, Z.Okrut, V.İqnatov, V.Butov, A.Puşkin, İ.Boqdanov, N.Smorodinskaya, A.Kapustin, R.Levitski, Y.Kantonistova, V.Osipov,

Y.Druzik, K.Prisekina və başqalarının elmi əsərlərində XİZ-in dünya iqtisadi proseslərində, milli iqtisadiyyatların inkişafında rolu və əhəmiyyəti barədə nəzəri-konseptual baxımdan əhəmiyyət kəsb edən elmi-tədqiqat araşdırmaları vardır.

XİZ-in milli iqtisadiyyatların innovasiyalaşdırılmasında xüsusi əhəmiyyəti barədə araşdırmalar İ.Klim, R.Naydenova, O.Muşayeva, Y.Şerbanin, N.Ponomarenko, Y.Korolyov, M.Kaniovski, A.Folomyov və O.Qoliçenkonun elmi-tədqiqat işlərində və elmi əsərlərində yer almışdır. Bu kimi zonaların milli iqtisadiyyatın ayrı-ayrı regionlarının inkişafında effektiv iqtisadi mexanizm kimi çıxış etməsi, bir qrup alim-tədqiqatçıların – L.Zubçenko, S.Tolkunova, L.Leskova, A.Dumnov, Y.Poluxin və başqalarının elmi işlərində araşdırılmışdır.

XİZ-in milli iqtisadiyyatların iqtisadi təhlükəsizliyi ilə bağlı qarşılıqlı münasibətlərini və bu sahədə belə zonaların əhəmiyyəti üzrə araşdırmalar A.Kruqlov, V.Firsov, M.Qriqoryev, A.Qlotov, M.Listopad və Y.Qorbunovanın elmi əsərlərində verilmişdir. Bu kimi zonaların turizm-rekreasiya xidmətlərinin səmərəli təşkilində əhəmiyyəti üzrə elmi araşdırmalar D.Qerun, P.Veliçko və L.Nikiforovanın, XİZ-lərin hüquqi bazalarının və əsas hüquqi elementlərinin tədqiqi üzrə isə A.Ketov, N.Şvıdak, A.Qarip və Q.Yefimovun, bu kimi zonaların milli iqtisadiyyatların inkişafı prosesləri ilə strateji bağlılığı A.Nikolayeva, A.Veliqorski, S.Sutırin və Y.Çerniyavskayanın, liman və nəqliyyat təyinatlı XİZ-in yaradılması və fəaliyyəti üzrə N.Qaynutdinov, Y.İvanov, İ.Melomed, V.Katsman, Y.Belova və O.Pavukun elmi-tədqiqat işlərində vardır.

Rusiyalı alimlərdən A.Basenko "Milli iqtisadiyyatın dünya təsərrüfat sistemi əlaqələrində inteqrasiya mexanizmində xüsusi iqtisadi zonanın funksiyaları", P.Pavlov "Xüsusi iqtisadi zonalar Rusiyanın qloballaşan dünya təsərrüfatına qoşulmasının institusional aləti kimi" və A.Brıntsev "Sənayedə xüsusi iqtisadi zonalar şəraitində investisiya mühitinin formalaşdırılması" mövzularında doktorluq dissertasiyaları yerinə yetirməklə yanaşı, bu sahədə çoxsaylı elmi-tədqiqatlar aparmışlar.

XİZ-in nəzəri-konseptual əsasları və onların dünya iqtisadiyyatında, milli iqtisadiyyatların inkişafında əhəmiyyəti barəsində elmi işlər türk tədqiqatçıları Yeksel Akça, Çizen Tükrgenci, Soner Yavaş, İbrahim Arslanı, Sevda Yapraklı, Demir Nuran və Yüksel Lisans Tezi, çinli alim-tədqiqatçılar və mütəxəssislər Sun Yuysu, Pin Syuy, Lo Venxua, Qo Şou-Dji, Qao Tyanmin, Qo Şuxun, Pi Tsyanşen və Van Kay, vyetnamlı tədqiqatçılar N.M.Xoa, Xoanq Kxan və Fam An Tuan,

bir qrup digər ölkələrin tədqiqatçıları - Ş.Tatsuno (Yaponiya), Aradhna Ağğarval (Hindistan), Lee Çanqvon (Cənubi Koreya), Jamil Tahir (BƏƏ), D.Ç.Kostiç (Serbiya), A.Y.Abdelhalim Mohammed (Sudan) P.Q.Katrin (Panama), Do Nara (Kamboca), İ.L.Kim (Qazaxıstan), A.B.Asılbayev (Qırğızıstan) və M.Şoidarvozovanın (Tacikistan) elmi əsərlərində yer almışdır.

Aparılan elmi-tədqiqat işlərinin nəticələrinin və elmi əsərlərin mahiyyətinin yüksək dəyərlərini qiymətləndirməklə yanaşı, qeyd etmək lazım gəlir ki, bu tədqiqatlar və əldə edilmiş elmi nəticələr XİZ kimi mürəkkəb iqtisadi mexanizmin təşkili və fəaliyyəti ilə bağlı məsələlərin hamısını kompleks şəkildə əhatə edə bilməmişdir. Belə ki, XİZ-in milli iqtisadiyyatın inkişafının sürətləndirilməsi və innovasiyalaşdırılması, bu kimi zonaların dünya iqtisadi proseslərində rolunun daha dərindən və fundamental elmi araşdırılması zərurəti qalmaqdadır.

Azərbaycanda da XİZ-in yaradılması və fəaliyyəti problemlərinə uzun müddət baxılsa da, bu sahədə ciddi və fundamental elmi araşdırmalar azdır. Bu günə qədər, bu mövzuda yalnız 2 namizədlik dissertasiyası yerinə yetirilmişdir və həm də bu işlər 1990-cı illərə təsadüf edilir. Göründüyü kimi, bu işlərdə müəyyənləşdirilən prioritet istiqamətlər və əldə edilmiş elmi nəticələr ən azı zaman baxımından öz əhəmiyyətini azaltmışdır və müasir dövrün tələblərinə cavab vermək iqtidarında deyildir. Təqdim edilən dissertasiya işinin əsas əhəmiyyəti ondan ibarətdir ki, bu tədqiqat işində XİZ-in nəzəri-konseptual əsasları ilə yanaşı, bu kimi zonaların təşkili və fəaliyyəti üzrə çoxlu sayda dünya ölkələrinin təcrübəsi, bu proseslərdə ortaya çıxan problemlərin həlli yollarının prioritet istiqamətləri, innovasiyaların tətbiqində belə zonaların əhəmiyyəti, Azərbaycanın iqtisadi inkişafının davamlılığının təmin edilməsində və milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılmasında XİZ-in tətbiqini şərtləndirən mühüm iqtisadi amillərin və müasir iqtisadi tendensiyaların başlıca xüsusiyyətlərini və problemlərin həlli yollarını özündə əks etdirən XİZ-in təşkili üzrə Milli İqtisadi Strategiyanın işlənməsi, bu kimi zonaların ölkənin iqtisadi sisteminə daxil edilməsinin prioritet istiqamətləri verilmişdir. Tədqiqat işi Azərbaycanda bu mövzuda yerinə yetirilmiş ilk doktorluq dissertasiyasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi XİZ-in qloballaşma şəraitində milli iqtisadiyyatın inkişafında rolunun və onun təşkilinin nəzəri - metodoloji əsaslarını təhlil etmək, dünya ölkələrinin təcrübəsini öyrənməklə, Azərbaycanda XİZ institutunun formalaşdırılması, ölkəmizin iqtisadi sisteminə daxil edilməsi imkanlarını araşdır-

maq, bu istiqamətdə problemləri müəyyənləşdirmək, milli iqtisadi inkişaf konsepsiyasına uyğun XİZ mexanizmlərini işləyib hazırlamaq və belə zonaların təşkilini şərtləndirən amilləri elmi və nəzəri cəhətdən əsaslandırmaqla və strateji hədəflər nəzərə alınmaqla, təklif və tövsiyələrin verilməsindən ibarətdir.

Qeyd edilən problemlər üzrə tədqiqat işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

− XİZ-in təşkilinin nəzəri - metodoloji əsaslarının və formalaşması proseslərinin təhlili;

− dünya iqtisadiyyatının qloballaşdığı bir şəraitdə XİZ-lərin milli iqtisadiyyatın davamlı inkişafında rolunun müəyyənləşdirilməsi;

− dünya XİZ-nin spesifik xüsusiyyətlərinin araşdırılması və təsnifatlaşdırılması;

− XİZ-in müxtəlif dünya ölkələrinin iqtisadi inkişaf proseslərində əhəmiyyətinin təhlili, bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin XİZ təcrübələri əsasında bu kimi zonalardan istifadənin səmərəliliyinin öyrənilməsi;

− bir qrup postsovet respublikalarının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsində XİZ-in əhəmiyyəti, inkişaf perspektivləri və belə zonaların fəaliyyəti ilə bağlı proseslərin təhlili;

− milli iqtisadiyyatların dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsində XİZ-dən effektiv iqtisadi mexanizm kimi istifadəni şərtləndirən proseslərin araşdırılması;

− Azərbaycanda XİZ-lərin yaradılmasının və fəaliyyətinin hüquqi bazasının mövcud vəziyyətinin qiymətləndirilməsi;

− Ölkənin iqtisadi sistemində XİZ institutunun tətbiqinə mane olan problemlərin müəyyənləşdirilməsi və həlli yollarının göstərilməsi;

− milli iqtisadiyyatın inkişafının davamlılığının təmin olunmasında və rəqabətqabiliyyətinin artırılmasında, müxtəlif iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsində XİZ-in rolunun qiymətləndirilməsi;

− milli iqtisadiyyatın müxtəlif sektorlarına xarici investisiyaların və yeni texnologiyaların cəlbində XİZ-in əhəmiyyətinin təhlili;

− qeyri-neft sektoru sahələrinin innovasiyalaşdırılmasında, elm və yüksək texnologiya əsaslı iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində XİZ-lərin potensialından istifadənin öyrənilməsi;

− XİZ-dən milli iqtisadi təhlükəsizliyin təmin olunmasında əlavə effektiv iqtisadi vasitə kimi istifadə perspektivlərinin qiymətləndirilməsi;

− ölkənin xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasında, xüsusilə ixrac potensialının artırılmasında XİZ-dən istifadə etməklə, müasir ixracyönümlü istehsal müəssisələri şəbəkəsinin yaradılması problemlərinin araşdırılması;

− XİZ-in dünya təcrübəsi əsasında və milli iqtisadi inkişaf reallıqları nəzərə alınmaqla, təşkili və fəaliyyəti üzrə Milli İqtisadi Strategiyanın işlənib hazırlanması, reallaşdırılması perspektivləri üzrə təklif və tövsiyələrin verilməsi və s.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının mühüm institusional aləti və təşkilati strukturu kimi XİZ təşkil edir.

Tədqiqatın predmeti isə milli iqtisadiyyatın qloballaşması şəraitində dayanaqlıq immunitetinin formalaşdırılması, milli iqtisadiyyatların inkişafının və innovasiyalaşdırılmasının sürətləndirilməsi, investisiyaların və yüksək texnologiyaların ölkəyə gətirilməsində yeni iqtisadi mexanizmlərin tətbiqi, milli iqtisadiyyatın təhlükəsizliynin təmin olunması, qeyri-neft sektoru sahələrinin inkişafının stimullaşdırılması, ixrac potensialının yüksəldilməsi üçün əlavə məhsuldar iqtisadi alət kimi XİZ-dən səmərəli istifadə problemlərindən və onların təşkilinin prioritetlərindən ibarətdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** klassik iqtisadçıların və müasir iqtisadçı alimlərin ticarətin sərbəstləşdirilməsi, iqtisadiyyatın liberallığı, XİZ-in formalaşması və inkişafı, bu kimi zonaların tətbiqi ilə bağlı əldə etdikləri elmi nəticələr və tətbiq etdikləri metodologiyalar təşkil edir. XİZ-in təşkili üzrə nəzəri-metodoloji aspektlər Amerika və Qərbi Avropadan olan iqtisadçı-alimlərin və tədqiqatçıların elmi əsərlərində daha çox yer almış və bu istiqamətdə XX əsrdə məhsuldar nəticələr əldə edilmişdir. Son 20-30 il ərzində XİZ-in təşkili ilə bağlı proseslərdə Asiya ölkələrinin XİZ təcrübəsində əldə edilmiş metodoloji prinsiplər dünya ölkələri arasında daha çox yayılmaqdadır.

Tədqiqat işində XİZ-in Azərbaycanın milli iqtisadi inkişaf modelinə daxil edilməsi proseslərinə və ölkəmizdə bu kimi zonaların təşkili perspektivlərinə ciddi önəm verildiyindən, Azərbaycan Respublikasının iqtisadi fəaliyyətlə bağlı müvafiq Qanunları, iqtisadi inkişaf ilə bağlı dövlət proqramları və konsepsiyaları, ölkə prezidentinin fərman və sərəncamları, hökumətin müvafiq qərarları da nəzəri- metodoloji bazaya daxildir.

Tədqiqatın metodiki bazası problemin spesifik özəlliklərinə adekvat olaraq formalaşdırılmışdır. Tədqiqat prosesində istifadə edilən

iqtisadi-statistik qruplaşdırma, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma və konseptual metodlardan istifadəyə üstünlük verilmişdir.

Tədqiqat işinin konsepsiyası və strateji hədəfləri tədqiqat obyekti üzrə aparılmış araşdırmalar nəzərə alınmaqla, müəllifin elmi mövqeyi əsasında formalaşmışdır. Bu mövqe, dünya ölkələrinin iqtisadi inkişaf proseslərində uğurla sınaqdan çıxmış, XİZ təcrübəsinə əsasən formalaşmış və bunun əsasında XİZ-in dünya iqtisadi sistemində əhəmiyyətini, Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsində, ölkə iqtisadiyyatının inkişafına əlavə stimulların verilməsində və xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafında, investisiyaların və yüksək texnologiyaların gətirilməsində, bütövlükdə ölkənin davamlı inkişafının təmin edilməsi məqsədilə XİZ-in təşkilini şərtləndirən zərurətə əsasən formalaşdırılmışdır.

**Tədqiqatın informasiya bazasını** Azərbaycanın dövlət qurumlarının, Nazirlik və Komitələrin, xüsusilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, İqtisadiyyat və Sənaye Nazirliyinin statistik məcmuələri və rəsmi nəşrləri, Beynəlxalq təşkilatların hesabatları, hökumət qurumlarının və beynəlxalq təşkilatların rəsmi internet saytları, analitik materiallar, xüsusi dövri nəşrlər və digər informasiya mənbələri təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dünya təsərrüfatı sistemində və milli iqtisadiyyatların inteqrasiya proseslərində səmərəli iqtisadi mexanizm kimi əhəmiyyət kəsb edən və dünya ölkələrinin təcrübəsində uğurla sınaqdan çıxmış, Azərbaycanda isə yaxın perspektivdə ölkənin iqtisadi sisteminə daxil edilməsi nəzərdə tutulan XİZ-in kompleks tədqiqi və ölkəmizin iqtisadi inkişafının strateji hədəfləri nəzərə alınmaqla, bu kimi zonaların milli iqtisadi sistemə tətbiqinin təşkili üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, XİZ-in təşkili strategiyası və konsepsiyasının nəzəri-metodoloji baxımdan formalaşdırılması tədqiqat işinin elmi yeniliyinin əsasını təşkil edir.

Ümumilikdə, əsas elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- Xüsusi iqtisadi zonaların nəzəri-metodoloji bazasının müqayisəli qiymətləndirilməsinə istinadla konseptual ümumiləşdirmə aparılmış, milli iqtisadiyyatın spesifikasiyasına adekvat olan müasir elmi baxış formalaşdırılmışdır;
- XİZ-lərin müxtəlif təsnifat əlamətlərinin sistemli şəkildə uyğunlaşdırılmasına nail olunmuş və vahid təsnifat strukturu tərtib edilmişdir;

- Müasir iqtisadi gerçəklikdən çıxış etməklə, məcmu sosial-iqtisadi səmərəliliyin yüksəldilməsində XİZ-dən istifadənin əsas istiqamətləri müəyyən edilmişdir;
- Çoxlu sayda dünya ölkələrinin XİZ təcrübəsinin sistemli təhlili aparılmış, onların yaradılması və fəaliyyəti prosesləri, vergi, gömrük və hüquqi rejimləri öyrənilmiş, bu kimi zonaların təşkili və idarə edilməsi, fəaliyyət xüsusiyyətləri barədə kompleks təkliflər və tövsiyələr verilmişdir;
- Milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsində XİZ-in spesifik vasitə kimi çıxış edə bilmə imkanları elmi-iqtisadi cəhətdən əsaslandırılmışdır;
- Ölkənin geoiqtisadi vəziyyətinə müvafiq olaraq XİZ-dən effektiv istifadə edilməsi mexanizminin mahiyyəti açıqlanmışdır;
- Ölkədə xüsusi iqtisadi zonaların effektiv tətbiqi və əsas inkişaf təmayüllərini əks etdirən "Azərbaycanda XİZ üzrə Milli İqtisadi Strategiya" layihəsi işlənib hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin elmi-tədqiqat işləri planına müvafiq olaraq yerinə yetirilmişdir. Bu tədqiqat işinin əsas nəzəri-konseptual müddəaları və elmi nəticələri Azərbaycanda XİZ-in nəzəri tədrisində və təcrübi təşkilində, onların fəaliyyətinin tənzimlənməsində əhəmiyyətli rol oynaya bilər.

Tədqiqatda yer almış təhlillər, elmi-iqtisadi əsaslandırmalar, təklif və tövsiyələr XİZ-in təşkili proseslərində istifadə edilməsi perspektivinə malikdir. Bu tədqiqat işinin elmi-iqtisadi və elmi-təcrübi nəticələri mühüm dövlət qərarlarının hazırlanmasında və dövlət proqramlarının qəbul edilməsində istifadə oluna bilər.

Tədqiqat mövzusu üzrə əsas müddəalar, iqtisadi nəzəriyyə kursunun dünya iqtisadiyyatı və XİZ-lə bağlı olan mövzularının nəzəri və təcrübi baxımdan yeni materiallarla zənginləşməsində, onlardan fənn proqramlarının və dərsliklərin hazırlanmasında istifadə edilə bilər. Ölkəmizdə XİZ-lə bağlı dərs vəsaitlərinin azlığı baxımından dissertasiya işinin nəzəri-metodoloji materialları tədris prosesində istifadə üçün təcrübi əhəmiyyət daşıyır.

Bunlarla bərabər, XİZ, onların təşkili və fəaliyyəti, dünya ölkələrinin XİZ təcrübəsi, bu kimi zonaların investisiyaların və texnologiyaların cəlbində rolu, qeyri-neft sektoru sahələrinin inkişafı, milli iqtisadiyyatların innovasiyalaşdırılması və sair mövzular üzrə sonrakı elmi-

tədqiqatlar üçün bu dissertasiya işi nəzəri, konseptual və empirik baza rolunu oynaya bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və əldə edilmiş nəticələr dünyanın müxtəlif ölkələrində və həmçinin Azərbaycanda keçirilmiş ümumilikdə 20-yə qədər beynəlxalq elmi konfranslarda və simpoziumlarda edilmiş məruzələrdə öz əksini tapmışdır:

– “VII Türk dünyası: iqtisadiyyat, elm və mədəniyyət” forumunun Beynəlxalq Konfransı. Bakı şəhəri, 4-5 dekabr, 2008-ci il;
– “Mərkəzi və Şərqi Avropada elmi cəmiyyət” mövzusunda Beynəlxalq elmi iqtisadi konfrans. Nalençov şəhəri (Polşa), 11-13 may 2009-cu il;
– “Avrasiya Biznesi və İqtisadi Cəmiyyət (ABIC) – 2009” Konfransı, İstanbul şəhəri (Türkiyə), 1-2 iyun 2009-cu il;
– “İqlim dəyişikliyinin azaldılması” mövzusunda İnnovasiya İqtisadi Siyasəti üzrə Beynəlxalq simpozium, İtaliya, 25-26 iyun 2009-cu il;
– Beynəlxalq Biznes İqtisadiyyat tədqiqatları konfransı. Clute İnstitutu, Las Veqas (ABŞ), 5-7 oktyabr, 2009-cu il;
– “Qloballaşma şəraitində MDB ölkələrinin iqtisadi siyasəti” mövzusunda Beynəlxalq elmi-təcrübi konfrans. Moskva şəhəri (Rusiya), 25 dekabr 2009-cu il;
– “Innovatika-2010” mövzusunda Beynəlxalq konfrans, Ulyanovsk şəhəri (Rusiya), 21-24 mart 2010-cu il;
– “İqtisadiyyat və idarəetmə: inkişafın innovasiyalı yolları” mövzusunda Beynəlxalq elmi-təcrübi konfrans. Saratov şəhəri (Rusiya), 25 may-10 iyun 2010-cu il;
– Azərbaycanın innovasiya iqtisadiyyatına keçməsində xüsusi iqtisadi zonaların təsiri məsələləri. “Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları” mövzusunda Respublika elmi konfransı. Sumqayıt Dövlət Universiteti, 30 noyabr 2010-cu il;
– Azərbaycan iqtisadiyyatının innovasiyalaşdırılmasında xüsusi zonaların tətbiqinin mühüm aspektləri. “İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri” mövzusunda Beynəlxalq elmi konfrans. SDU, Sumqayıt- 28-29 sentyabr 2012-ci il;
– Milli iqtisadiyyatın innovasiyalaşdırılmasının gücləndirilməsində xüsusi iqtisadi zonaların effektivliyi. Tətbiqi və fundamental elmlər: 4-cü Beynəlxalq Akademik Konfransın Materialları. Missuri

(ABŞ), 29-30 noyabr 2013-cü il. – S. 149-153. - http://conf-afs.com/publication.html;
- Azərbaycanda sosial-iqtisadi inkişaf prosesinin sürətləndirilməsində AİZ-in əhəmiyyəti. Beynəlxalq elmi konfrans, Sumqayıt Dövlət Universiteti, 24 oktyabr 2014-cü il və s.

Dissertasiyanın əsas elmi-təcrübi müddəaları müəllifin 2008-ci ildə nəşr etdirdiyi "Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişafı perspektivləri" və 2012-ci ildə nəşr olunan "Xüsusi iqtisadi zonaların tətbiqi problemləri" adlı monoqrafiyalarında verilmişdir (Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərinin maliyyələşdirilməsi məqsədilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi- Layihə nömrəsi EİF-2011-1(3)-82/80/5-M-46 - 10 oktyabr 2011-ci il). Bundan əlavə, müəllifin 2010-cu ildə nəşr edilmiş "Xüsusi iqtisadi zonalar: qloballaşma şəraitində istifadənin prioritetləri və problemləri (rus dilində) və "Azərbaycan iqtisadiyyatının davamlı inkişafının mühüm determinantları" (rus dilində), 2012-ci ildə dərc edilmiş "Xüsusi iqtisadi zonalar: konseptual əsaslar və strateji istiqamətlər", "Azərbaycanın kimya və neft-kimya kompleksi: potensialın qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri", "Sumqayıt sənaye mərkəzi: mövcud potensialdan istifadə, modernləşdirmə və müasirləşdirmə prioritetləri" kitablarında verilmiş materiallarda tədqiqat işinin bir qrup müddəaları öz əksini tapmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının "İqtisadiyyat bölməsinin 11.11.2010-cu il tarixli iclasının qərarı ilə təsdiq edilmiş (protokol №3) və Nazirliyin 19.03.2011-ci il 475 saylı əmrinə əsasən müəllifin tərtib etdiyi "Azad iqtisadi zonalar" fənn proqramına qrif verilmişdir. Bu proqram kredit sistemi ilə təhsilin tədris planına uyğun olaraq "Beynəlxalq iqtisadi münasibətlər" və "Dünya iqtisadiyyati" ixtisasları üzrə tədris üçün nəzərdə tutulmuşdur. Həmin ixtisaslar üzrə müəllif tərəfindən Azərbaycanda ilk dəfə olaraq "Azad iqtisadi zonalar" dərsliyi hazırlanmış və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2320 nömrəli 21.12.2012-ci il tarixli əmri ilə qrif verilmişdir. Müəllifin XİZ-lə bağlı Beynəlxalq konfranslarda və simpoizumlarda çıxışlarının, həmçinin xarici elmi jurnallarda dərc edilən məqalələrinin bir çoxlarının şərhi Azərbaycan Dövlət Teleqraf Agentliyi tərəfindən işiqlandırılmışdır (29.06.2009-cu il; 26.10.2009-cu il; 10.11.2009-cu il; 16.11.2009-cu il; 23.02.2010-cu il; 19.03.2010-cu il və 28.04.2010-cu il; 13.02.2012-ci il). Müəllifin Azər-

baycan, rus, ingilis, Ukrayna dillərində ölkədə və ölkəmizdən kənarda müxtəlif elmi jurnallarda 100-dən çox elmi məqaləsi və məruzələri dərc edilmiş, dünyanın müxtəlif internet saytlarında və elektron kitabxanalarında elmi məqalələri yerləşdirilmişdir. Dissertasiya işinin nəzəri baxımdan ən mühüm müddəaları müəllif tərəfindən onun dosent vəzifəsində işlədiyi Sumqayıt Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasında "Azad iqtisadi zonalar" fənninin tədrisi prosesində mühazirələrin hazırlanmasında və təcrübi məşğələlərin aparılmasında istifadə olunur. Müəllifin Azərbaycanda xüsusi iqtisadi zonaların təşkili, idarə edilməsi və tətbiqi ilə bağlı təklifləri 05.03.2015-ci il tarixində Azərbaycan Respubkilakasının İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim edilmiş və Nazirlik tərəfindən baxılmaq üçün qəbul olunmuşdur (daxilolma qeydiyyatı: İSN-D/O-Ə-58/2015, 06.03.2015-ci il – məktub 30 mart 2015-ci il № İSN-X/O-2379/2015).

İddiaçı bir sıra beynəlxalq elmi cəmiyyətlərin, elmi nəşrlərin işində fəallığı ilə seçilir. O, Beynəlxalq İqtisadçılar Assosiasiyasının (European Economic Association - www. eeassos.org) və Yeni İqtisadi Assosiasiyasının (New Economic Association www. econurus. org) üzvüdür. Rusiya Ali Attestasiya Komissiyasının doktorluq dissertasiya işlərinin elmi nəticələrinin nəşr olunduğu "Kreativ iqtisadiyyat" və "Rusiya sahibkarlığı jurnalı" kimi elmi jurnalları özündə birləşdirən "Kreativ iqtisadiyyat" nəşriyyatının Azərbaycan üzrə təmsilçisidir (www.creativ-economy.ru.con tacts). İddiaçının elmi fəaliyyəti dünyanın müxtəlif elektron resurslarında geniş yer almışdır. Onun elmi fəaliyyəti və elmi əsərləri barədə məlumatlar dünyanın nüfuzlu elmi elektron resurslarında yerləşdirilmişdir (http://scieconlib. weebly.com; http://shafaaliyev. wordpress. com). Rus dilində bir çox məqalə və məruzələri Rusiyanın PORTALUS.Ru elmi onlayn kitabxanasında (www. portalus.ru) və Belarus rəqəmsal kitabxanasında (www.library.by) elektron resurs formasında yer almışdır.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiyanın strukturu girişdən, 15 paraqrafı birləşdirən 5 fəsildən, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavədən ibarətdir. İşin həcmi 350 səhifədir, burada 22 cədvəl, 7 şəkil və əlavə yer almışdır. İşdə istifadə edilmiş ədəbiyyat mənbələrinin sayı 369-dur.

**İxtisarların siyahısı**
**Giriş**
**I Fəsil. Xüsusi iqtisadi zonaların təşəkkülünün nəzəri-metodoloji əsasları**
1.1. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və "iqtisadi zona" anlayışının formalaşması prosesi
1.2. Dünya XİZ-nin təsnifatı və spesifik xüsusiyyətləri
1.3. XİZ-in dünya iqtisadiyyatının inkişafının sürətləndirilməsində əhəmiyyəti
**II Fəsil. Dünya təcrübəsində XİZ-dən istifadənin səmərəliliyi məsələləri**
2.1. İnkişaf etmiş ölkələrin XİZ təcrübəsi
2.2. XİZ-in inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu
2.3. XİZ-dən istifadənin ayrı-ayrı dünya ölkələrinin iqtisadi inkişaf proseslərinə təsiri
**III Fəsil. Müstəqil Dövlətlər Birliyi respublikalarının dünya iqtisadi sisteminə inteqrasiyasının genişləndirilməsində XİZ amili**
3.1. MDB respublikalarının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində XİZ institutunun mühüm aspektləri
3.2. MDB respublikalarında XİZ-in təşkilinin müasir vəziyyəti və inkişaf perspektivləri
3.3. MDB dövlətlərində XİZ-in səmərəli fəaliyyətinin təşkili problemləri
**IV Fəsil. XİZ-in Azərbaycanın milli iqtisadi inkişaf modelinə daxil edilməsi prosesləri**
4.1. XİZ-i səmərəli iqtisadi mexanizm kimi şərtləndirən proseslərin təhlili
4.2. XİZ-in yaradılmasının və fəaliyyətinin hüquqi bazasının mövcud vəziyyəti
4.3. XİZ-in tətbiqi problemləri
**V Fəsil. Azərbaycanda XİZ-in təşkili perspektivləri**
5.1. XİZ iqtisadi təhlükəsizliyin təmin olunmasında yeni iqtisadi vasitə kimi
5.2. Qeyri-neft sektoru sahələrinin innovasiyalaşdırılmasında və ixrac potensialının artırılmasında XİZ-dən istifadənin prioritet istiqamətləri
5.3. XİZ-in təşkili və fəaliyyəti üzrə Milli İqtisadi Strategiyanın qəbul edilməsi və reallaşdırılması perspektivləri
**Nəticə**
**Ədəbiyyat**
**Əlavə**

# DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

## 1. XİZ-in nəzəri-metodoloji əsasları və Beynəlxalq Əmək Bölğüsündə iştirakı

Dünya iqtisadi proseslərində ən mühüm təsir qüvvəsinə malik amillərdən biri kimi milli iqtisadiyyatların Beynəlxalq Əmək Bölgüsündə iştirakı və ixtisaslaşması məsələləridir. Xüsusilə, son 20 il ərzində dünya təsərrüfat sistemində və inteqrasiya məkanında qloballaşma proseslərinin sürətlənməsi, bu məsələlərə sistemli yanaşmanı və strateji hədəflərin mümkün qədər milli iqtisadiyyatların inkişaf prioritetlərinin və milli iqtisadi maraqların nəzərə alınması şərti ilə müəyyənləşdirilməsi tələb olunur. Bu proseslərdə əksər iqtisadi fəaliyyət prioritetləri XİZ-in bu və ya digər fəaliyyət elementləri ilə üst-üstə düşür.

"İqtisadi zona" anlayışlarının formalaşması və real iqtisadi sahələrə transformasiyası proseslərinin əksər elementləri klassik iqtisadi və ticarət nəzəriyyələrində, bir çox klassik iqtisadçıların əsərlərində də əhəmiyyətli yer almışdır. XİZ-lə bağlı mühüm müddəaların təhlilini apararkən klassik iqtisadçı A.Smitin "gözəgörünməz əl" nəzəriyyəsinə istinad etmək yerinə düşür. Belə ki, o, iqtisadiyyatla və onun inkişafı ilə bağlı prosesləri araşdırarkən, iqtisadiyyata dövlət müdaxiləsinin yolverilməz olduğunu əsaslandırmışdır. A.Smit "Xalqların sərvəti" adlı əsərində isə "iqtisadi zona" anlayışının formalaşdığı əsas fəaliyyət sahəsi olan ticarətin tənzimlənməsini pisləməklə yanaşı, bu işlərin nöqsanlı olması qənaətinə gəlmişdir. Bir çox iqtisadi ədəbiyyatlarda XİZ-in nəzəri əsasları ilə daha çox bağlılığı olan nəzəriyyə nümunəsi kimi ingilis alimləri P.Hall və S. Houv, amerikalı C.Butlerin irəli sürdükləri mülahizələr verilir. XİZ-in iqtisadi proseslərə edə biləcəyi təsir imkanlarını tədqiq edən bu alimlərə görə, iqtisadi tənəzzüllərin qarşısını dövlət ala bilmədikdə, iqtisadiyyatın ənənəvi mövcud olan idarəetmə rıçaqları artıq təsirsizdir və bu alətlərin yeniləşdirilməsi zərurəti meydana çıxır. Başqa sözlə, ticarətlə məşğul olanlar üçün daha əlverişli şəraitin təşkili, gömrük şərtlərinin yumşaldılması, vergilərin azaldılması, ticarət əməliyyatlarının genişləndirilməsinə mane olan kənar müdaxilələrin aradan qaldırılması və ya ən azı minimuma endirilməsi zərurəti yaranır. Bu mülahizələri XİZ-in nəzəri əsasları kimi dəyərləndirmək mümkündür.

ABŞ-da XİZ-in yeni funksiyalarla ölkənin iqtisadi sisteminə daxil edilməsi, tezliklə bu effektiv iqtisadi alətin müxtəlif modifikasiyalarının formalaşmasına və yeni tipli XİZ-in yaradılmasına səbəb olmuşdur. Amerika iqtisadçıları M.Frazye və R.Rey XİZ-in mahiyyəti və

formaları ilə bağlı dəyişiklikləri əsasən 3 mərhələyə bölmüşlər: anbar və tranzit zonalar (sərbəst limanlar, ticarət-anbar zonaları), sərbəst sənaye zonaları (ixrac-istehsal təyinatlı) və kompleks azad sahibkarlıq zonaları. Digər amerikalı iqtisadçı E.Toffler isə, XİZ-i müxtəlif modifikasiyalarda beynəlxalq iqtisadi əməkdaşlıq və inteqrasiya proseslərinin yeni iqtisadi mexanizmi kimi əsaslandırmışdır.

Bir qrup tədqiqatçı-alimlərin (G.A.Semyonov, T.P.Danko və Z.N.Okrut, V.İqnatov və V.Butov) "iqtisadi zona" anlayışları və XİZ-in mahiyyətinin nəzəri-konseptual əsasları barədə mülahizələrinin əsasında bu kimi zonaların beynəlxalq hüquq normativlərində anklav ərazi kimi qəbul edilməsi, xüsusi ərazilərin kompleks inkişafının təşkili üçün fəal iqtisadi mühit, investisiyaların cəlbinin və inteqrasiya proseslərinin sürətləndirilməsinə əlavə stimullar verən və müəyyən üstünlükləri ilə fərqlənən effektiv iqtisadi mexanizm kimi xarakterizə edilməsidir. Professor G.Semyonova görə, XİZ, anklava bənzəyir, burada dövlətin müdaxiləsi azalır və dövlətin müəyyənləşdirilmiş iqtisadi məkanında güzəşt sistemi tətbiq edilir. T.R.Danko və Z.N.Okruta görə, XİZ - ölkənin müstəqil ərazisi kimi təsərrüfat kompleksini özündə cəmləşdirərək, müəyyən məqsədlərə çatmaq üçün istehsal və ictimai məhsulun bölüşdürülməsini təmin edir və sərhədyanı ərazilərə doğru irəliləyir. Birgə apardıqları tədqiqat işlərində V.İqnatov və V.Butov bu qənaətə gəlmişlər ki, XİZ - məhdudlaşdırılmış bir ərazidir, burada yerli və xarici sahibkarlar üçün güzəştlərlə iqtisadi şərait qüvvədədir və bu şərtlər xarici ticarət, ümumiqtisadi, sosial, elmi-texniki və elmi-texnoloji işlərin yerinə yetirilməsinə imkan verir.

XİZ-in tədqiqi əsasında doktorluq işlərini müdafiə etmiş bir qrup elmi tədqiqatçıların (P.V.Pavlov, A.M.Basenko və A.N.Brıntsev) XİZ-in mahiyyəti ilə bağlı irəli sürdükləri mülahizələr, bu kimi zonaların müasir funksiyalarının mahiyyəti ilə üst-üstə düşür. P.V.Pavlova görə XİZ ölkənin iqtisadi sistemində əhəmiyyətli yer tutmaqla, burada pozitiv iqtisadi və sosial mühit yaratmağa və iqtisadi sistemin iyerarxiyasının müxtəlif səviyyələrində özünü müsbət tərəfdən göstərməyə qadirdir. A.M.Basenkoya görə, XİZ iqtisadi ərazi qurumu baxımından bazar münasibətləri meyarları üzrə inkişaf etmiş mexanizm kimi diqqəti cəlb edir. Burada sahibkarlıq fəaliyyətinin nizamlanması üçün xüsusi mexanizm qüvvədədir və bunlara effektiv iqtisadi alətlər və texnologiyalar, güzəştli vergi-gömrük və valyuta-maliyyə rejimləri daxildirlər. A.N.Brıntsev isə XİZ-in mahiyyətini onların yaranması ilə bağlı qarşısına qoyulan məqsədlərlə uyğunluğunda axtarmışdır.

Azərbaycanda "iqtisadi zona" anlayışları və XİZ-in mahiyyətinin formalaşması proseslərinin tarixi ölkəmizin müstəqillik əldə etməsi tarixi ilə üst-üstə düşmüşdür. 1990-cı illərin əvvəllərindən başlayaraq, Azərbaycanda "iqtisadi zona" anlayışları üzrə iqtisadi ədəbiyyatlarda nümunələrə yer verilirdi. Bütün bunlara baxmayaraq, XİZ-in elmi-nəzəri əsasları, konseptual mahiyyəti, bu kimi zonaların ölkəmizin iqtisadi sisteminə daxil edilməsi üzrə diskussiyalar əsasən son 8 ilə təsadüf edir. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli "Azərbaycan Respublikasında XİZ-in yaradılması haqqında" Fərmanından sonra XİZ barədə diskussiyalar xeyli intensivləşmişdir. Fərmanla Azərbaycanda bu kimi zonaların rəsmi olaraq, ilk dəfə xüsusi iqtisadi zonalar kimi yaradılmasının nəzərdə tutulması və bununla bağlı müvafiq tədbirlərin görülməsi, dövlətin iqtisadi siyasətinin formalaşdırılması, bu sahədə dünya təcrübəsinin öyrənilməsi və XİZ mahiyyətindən doğan mexanizmlərin reallaşdırılması üçün qanunvericilik bazasının hazırlanması və qəbul edilməsi məsələləri üçün tapşırıqlar verilmişdir. Nəhayət, XİZ haqqında Azərbaycan Respublikasının Qanunu 2009-cu ilin aprel ayının 14-də qəbul edilmiş və həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2009-cu il tarixli Fərmanı verilmişdir. Qanunda qeyd edilir ki, XİZ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi rejimin tətbiq edildiyi Azərbaycan Respublikası ərazisinin məhdud hissəsidir. Xüsusi rejim dedikdə isə sahibkarlıq fəaliyyətinin güzəştli şərtlərlə həyata keçirilməsi XİZ ərazisində onun rezidentlərinə tətbiq edilən rejim nəzərdə tutulur. Bu Qanunla ölkəmizdə XİZ-in yaradılmasının məqsədi kimi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə Azərbaycan Respublikasında sahibkarlığın və ümumilikdə milli iqtisadiyyatımızın inkişafının sürətləndirilməsi müəyyənləşdirilmişdir.

## 2. Dünya ölkələrində XİZ-in təsnifatının və spesifik xüsusiyyətlərinin mühüm aspektləri

Bir çox dünya alimləri və tədqiqatçılarının XİZ-in təsnifatı və bu kimi zonaların spesifik xüsusiyyətləri barədə verdikləri sxemlər və irəli sürdükləri mülahizələr maraq doğurur. Akademik Y.F.Avdokuşinin tədqiqat işlərində əsas üstünlüyü XİZ-in sahibkarlıqla bağlı funksiyalarını özündə cəmləşdirən zona qrupları və növləri təşkil edir. Bir qrup Rusiya alimlərinin (Y.F.Jukov, V.Q.İqnatov, V.İ.Butov, R.İ.Zimenkov, İ.V.Klim və s.) XİZ-lə bağlı tədqiqat işlərinə əsasən qeyd etmək olar ki, bu kimi zonaların qruplaşdırılması, təsnifatlaşdırılması və spesifik

xüsusiyyətlərinin müəyyənləşdirilməsi sistemli yanaşmanı şərtləndirir. Bu alimlər XİZ-i əsasən 6 qrupa – ticarət, sənaye-istehsal, texniki-tətbiq, xidmət, kompleks və beynəlxalq XİZ-ə bölmüşdür. Müəlliflər XİZ-in dünya təcrübəsində yer almış əsas qruplarını və növlərini araşdırarkən, bu qənaətə gəlmişlər ki, dünyada onlarla müxtəlif formalarda mürəkkəb iqtisadi-təşkilatı strukturları əhatə edən zonalar fəaliyyət göstərirlər və bu zonalarda xarici və yerli kapitalın cəlbi üçün güzəştlər sistemi tətbiq olunur. Bu kimi zonalara rüsumsuz ticarət, rüsumsuz ixrac-sənaye, rüsumsuz ixrac, ixrac-sənaye, xarici ticarət, rüsümsuz istehsal, azad limanlar, investisiya təyinatlı müştərək sahibkarlıq, elmi-texniki, bank, sığorta və "açıq şəhərlər" təyinatlı XİZ aiddir.

Bir qrup çinli alimlərin (Q.Tyanmin, Q.Şou-Ci və s.) tədqiqat işlərində XİZ-in təsnifatı ilə bağlı araşdırmalar xüsusi maraq kəsb edir. Qao Tyanmin XİZ-in dünya təsərrüfatında rolunu araşdırarkən, onların müxtəlifliyinə baxmayaraq, əsasən texniki-tətbiq təyinatlı zona modellərinə üstünlük verildiyini qeyd etmişdir. Bu zonaların əsas məqsədləri xarici investisiyaların cəlbi, istehsal sahələrinin genişləndirilməsi, yeni texnologiyaların alınması və tətbiqi, regional iqtisadiyyatın inkişafının stimullaşdırılmasından ibarətdir. Qo Şou-Ci XİZ-in təsnifatlaşdırılması zamanı, onların təsərrüfat prinsiplərinə üstünlük verməyi məqsədəuyğun hesab etmişdir.

Dünya XİZ-nin qruplaşdırılması və növlərinin təsnifatlaşdırılması vəzifəsinə müasir prioritetlər və bu kimi zonaların əhatə etdiyi məqsədlər, vəzifələr, spesifik xüsusiyyətlər və digər mühüm meyarlar nəzərə alınmaqla yanaşmaq məqsədəuyğun olardı. Bu halda, nəzəri baxımdan dünya XİZ-in bu vaxta kimi mövcud qruplarının və müxtəlif növlərinin vahid təsnifat formasında birləşdirmə modelini verməyə cəhd göstərmək də olar. Şəkil 1-də dünya XİZ-nin müxtəlif qruplarına və növlərinə görə təsnifatı verilmişdir.

Qeyd etmək lazım gəlir ki, XİZ-in təsnifatlaşdırılmasında onların yaradılması ilə bağlı prinsipial məqamlar xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə dünya təcrübəsinin öyrənilməsi belə qənaətə gəlməyə imkan verir ki, XİZ-in təsnifatlaşdırılması zamanı, onların yaradılması prosesləri ilə bilavasitə bağlı olan bir sıra meyarlar, məsələn, belə zonaların yerləşdiyi ərazilər, coğrafi amillər, ərazinin miqyası, xammal və istehsal resurslarının kəmiyyət və keyfiyyət parametrləri, XİZ-in yaradılması üçün baza şərtlər, məqsəd və vəzifələr, fəaliyyət prioritetləri, strateji məqsədləri əsas götürülür.




**Şəkil 1.** Dünya XİZ-nin müxtəlif qruplarına və növlərinə görə təsnifatı (müəllif tərəfindən hazırlanmışdır).

## 3. XİZ-in dünya iqtisadi proseslərində rolu

Dünya təsərrüfat sistemində uzun bir dövr ərzində yer almış effektiv iqtisadi mexanizmlərdən biri kimi XİZ milli subyektlərin iqtisadi inkişaf proseslərinə əlavə stimulların verilməsində məhsuldar iqtisadi alət kimi çıxış edirlər. XİZ yerli və xarici kapitalı, investisiya resurslarını bir yerə cəmləməklə, buraya müasir texnologiyaları və idarəetmə modellərini gətirməklə, geniş çeşiddə rəqabətqabiliyyətli mal və məhsulların istehsalını təşkil etməklə, yerləşdiyi ərazinin, regionun və mənsub olduğu ölkənin dünya təsərrüfatının inteqrasiya kanallarına çıxışını genişləndirməklə, beynəlxalq mal və xidmətlər üzrə mübadilələrdə fəal iştirak etməklə, xarici ticarət əməliyyatlarını artırmaqla, milli iqtisadiyyatın davamlı inkişafına töhfələr verir və dünya təsərrüfat sisteminin iqtisadi gücünün artmasında iştirak edir.

XX əsrin ilk on beş ilinin əvvəlinə artıq dünyanın 135 ölkəsi bu kimi zonaların yaradılmasına nail olmuşdur. Müxtəlif modifikasiyalı XİZ-in sayı isə 3 mindən çox təşkil etmiş və bu zonalarda 68 milyon nəfərə yaxın insan işləyir (bax: şəkil 2).




**Şəkil 2. Dünya regionları üzrə XİZ-də işləyənlərin sayı (mln. nəfər)**

Şəkil 2-dən göründüyü kimi, Asiya və Fars körfəzində yerləşən ölkələrdə (Çin, İran, Cənubi Koreya, Malayziya, Vyetnam, Filippin, Sinqapur və digərləri) fəaliyyət göstərən XİZ-də 61 milyon nəfər işlə təmin edilmiş və bu kimi zonaların məhsuldar, həmçinin kompleks inkişafı hesabına həmin ölkələrin milli iqtisadiyyatları əsaslı şəkildə inkişaf etmiş, bu ölkələrdən bəziləri isə dünya dövlətləri sırasında iq-

tisadi inkişaf səviyyəsinə görə ön cərgələrdə yer almışlar. Müxtəlif dünya ölkələrinin XİZ-indən illik ixracın həcmi isə bütövlükdə 851 milyard dollar təşkil etmişdir (bax: şəkil 3).




**Şəkil 3. Dünya regionları üzrə XİZ-dən ixracın həcmi (mlrd. dollar)**

Bundan əlavə, XİZ dünyanın müxtəlif regionları üzrə qeyri-bərabər yerləşmişdir. XİZ Şimali Amerikada və Asiyada daha çox yayılmışdır (bax: şəkil 4).




**Şəkil 4. XİZ-in dünya regionları üzrə yerləşməsi, sayı**

Ümumiyyətlə, dünya XİZ-inin coğrafi baxımdan bölgüsündə Asiya ölkələri 33 %, ABŞ - 26 %, Mərkəzi Amerika və Meksika - 6 %, Karib regionu ölkələri - 9 %, Yaxın Şərq - 2 %, Şimali Amerika - 2 %,

Cənubi Amerika - 2 %, Avropa – 2 % və keçid iqtisadiyyatlı ölkələr 15 % yer almışlar.

**4. Dünya ölkələrinin XİZ təcrübəsi**

XİZ haqqında Qanun ilk dəfə 1934-cü ildə ABŞ-da qəbul edilmiş və XİZ-in ölkədə iqtisadi islahatların sürətləndirilməsində, sahibkarlığın inkişafında əlavə stimulların verə bilmək iqtidarında olmasında rolu dövlətin iqtisadi siyasətinin mühüm elementlərindən biri səviyyəsinə qaldırılmışdır. Belə ki, inkişaf etmiş ölkələr arasında daha geniş təcrübəyə malik olan ABŞ-da, son 70-80 ildə XİZ-in müasir və mütərəqqi modellərinin tətbiqi də diqqətdən yayınmamışdır.

ABŞ-da XİZ-in ən mütərəqqi və məhsuldar modellərindən biri kimi texnoparklar daha çox diqqəti cəlb edir. Texnoparklarda elm və kapital tutumlu müasir texnologiyaların işlənməsi, hazırlanması və tətbiq edilməsi proseslərinin kompleks təşkili mümkün olmuşdur. Məsələn, müasir texnologiyaların öz dövrü üçün ən yüksək səviyyədə işlənib hazırlanmasını və istehsal şəbəkəsini təşkil edən "Silikon vadisi" hazırda fəaliyyət göstərən əksər dünya texnoparkları üçün nümunəvi modelə çevrilmişdir. Bu texnopark 1983-cü ildə Kaliforniyada - Bostonda təşkil edilmişdir. Yarandığı və fəaliyyəti dövründə əldə etdiyi əhəmiyyətli nəticələr nəzərə alınmaqla, bu zona ABŞ-ın və dünyanın ən iri effektiv texnoparklarından sayılır. Burada dünya üzrə hesablama texnikası və kompyuterlərin istehsalının 20%-ə qədəri reallaşdırılır. Bu texnoparkada dünya informatikasının konstruktor potensialının sənaye üzrə 15%-i və konstruktor potensialı üzrə isə 30%-i cəmlənmişdir. "Silikon vadisi" parkında 8000-dən çox şirkət və kompaniya yüksək texnologiyaların işlənməsi, hazırlanması, istehsalata tətbiqi, rəqabətqabiliyyətli məhsulların istehsal və ixracı ilə bağlı məhsuldar fəaliyyət göstərirlər.

Yaponiyada uğurlu və spesifik XİZ modeli kimi formalaşdırılan texnopolislərin yaradılması bir sıra meyarlarla bilavasitə bağlıdır və bunların əsasında universitet və biznes strukturları, həmçinin yerli hakimiyyət orqanlarının qarşılıqlı maraqlarının olması durur. Ölkədə texnopolislərin yaradılmasına 1960-cı illərin əvvəllərində başlanmışdır. Həmin dövrdə Yaponiya hökuməti özünün iqtisadi siyasətində ən yüksək texnologiyaların işlənməsi və tətbiqinə mühüm yer verməyi strateji vəzifə kimi müəyyənləşdirmişdi. Hazırda dünyanın ən böyük texnopolisi olan "Tsikuba" 1963-cü ildə İbaraki prefekturasında və Tokiodan 60 km şimal-şərqdə 28 hektar ərazidə təşkil edilmişdir. İlk dövrlərdə bu texnopolisin fəaliyyəti üçün zəruri iri investisiya resursları əsasən

Yapon hökuməti tərəfindən ayrılmış və yalnız texnopolisin uğurları genişləndikdə iri biznesin və özəl investorların bu effektiv XİZ-ə marağı xeyli artmışdır.

Sinqapur XİZ-inin məhsuldar fəaliyyəti də diqqəti cəlb etmişdir. Belə ki, bu ölkədə ixracın ümumi həcmi xeyli artmaqdadır. Orta illik 330-340 mlrd. dollar səviyyəsində ixrac potensialı ilə, Sinqapur dünya ixracında 2,1 % paya malikdir. Bu ölkə investisiya mühitinin əlverişlik səviyyəsinə görə, dünya ölkələrinin reytinq cədvəlində son illərdə ikinci yerdə möhkəmlənmişdir. Sinqapur XİZ-lərinin əsas prinsiplərinə idxal-ixrac rejiminin tam liberallaşdırılması, rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidlərinin artırılmasının stimullaşdırılması daxildirlər. Sinqapurda 30-a yaxın XİZ-lər fəaliyyət göstərirlər və onlarda 4 minə yaxın müəssisələr yerləşmişdir. Bu ölkənin XİZ-də 230 min nəfər işlə təmin olunmuş və sənaye sahələrində işləyənlərin 70 %-i bu kimi zonalarda çalışırlar. Əhəmiyyətinə və istehsal həcminə görə Cüronqda yerləşən ixrac-sənaye zonası Sinqapurun ən böyük XİZ-i hesab olunur. Bu zonanın ərazisi 6,5 min hektardır və zonada 2 minə yaxın firma, təşkilat və müəssisələr fəaliyyət göstərirlər. Zonada işləyənlərin sayı isə 100 min nəfərdən çoxdur. “Cüronq” XİZ-i dəniz limanına yaxın yerləşir, bu liman isə dünyanın Nyu-York və Rotterdam limanlarından sonra 3-cü iri limanı kimi xarakterizə olunur.

Çinin iqtisadi inkişaf proseslərində XİZ-in əhəmiyyəti olduqca böyükdür. Bu ölkənin XİZ-ni bir çox dünya mütəxəssisləri “Çin möcüzələri” kimi xarakterizə edirlər. 1980-ci illərin əvvəllərində bu ölkədə 5 kompleks XİZ zonaları təşkil olunmuşdur. Bunlara Şençjen, Çyuxay, Şantou, Syamin və Xaynan XİZ-i daxildirlər. Əvvəlcədən kiçik bir kənd olan Şençjen qısa müddət ərzində 2 milyon nəfərlik əhalisi olan şəhər səviyyəsinə qədər inkişaf etmişdir. Burada 4 mindən çox rəqabətqabiliyyətli müəssisələr, o cümlədən, minə yaxın müştərək müəssisələr fəaliyyət göstərirlər. Bu zonanın ərazisində illik ixracın həcmi son 20 ildə orta illik 15 milyard ABŞ dolları həcmində təşkil etmişdir.

Türkiyədə “Sərbəst bölgələr” qanunu 1985-ci ildən qüvvəyə minmişdir. Türkiyə XİZ-nin strateji məqsədlərinə ixracatla bağlı istehsalın stimullaşdırılması, xarici investisiya və texnologiyaların gətirilməsinin sürətləndirilməsi, ticarətin inkişafı ilə bağlı imkanların genişləndirilməsi və iqtisadi fəallığın artırılması aiddir. Cədvəl 1-də Türkiyənin texnoloji və sənaye təyinatlı XİZ-nin növləri, onların sayı, coğrafi

yerləşmə regionları və əsas fəaliyyət istiqamətləri barədə məlumatlar öz əksini tapmışdır.

Cədvəl 1

**Türkiyənin texnoloji və sənaye təyinatlı XİZ-i və onların əsas fəaliyyət istiqamətləri**

| **Zonaların növləri** | **Sayı** | **Coğrafi yerləşmə regionları** | **Əsas fəaliyyət istiqamətləri** |
|---|---|---|---|
| Texnoloji zonalar - texnoparklar | Cəmi 37, onlardan 26-sı fəaliyyət göstərir, 11-i isə formalaşmaqdadır | Ankarada 6-sı, İstanbulda 5-i, Kocaelidə - 3-ü və digər regionlarda (İzmir, Eskişeher, Konya, Antalya, Ercilz, Trabzon, Adana, Erzurum, Mersin, Bursa, Qaziantep, Samsun, Malatya və s. ) | Elmi-tədqiqat işlərinin təşkili, investisiyaların və yüksək texnologiyaların cəlbi, istehsal sahələrin yaradılması və s. |
| Sənaye zonaları | Cəmi 262, onlardan 148-i fəaliyyət göstərir və 114-ü formalaşmaqdadır | Bu zonalar ölkənin 80 əyalətini əhatə etmişdir (Bursa – 10, İzmir – 6, Ankara – 5, İstanbul – 8, Kocaeli – 8, Konya – 4, Manisa – 4, Kayseri – 3, Sakarya – 3, Samsun – 3). | Hər cür infrastruktur obyektlərinə malik olmaqla, iri istehsal və yüksək texnologiyaların cəlbinə imkan verən istehsal sahələrinin təşkili və investisiyaların cəlb olunması və s. |

**Qeyd:** Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1-dən göründüyü kimi, ölkənin, demək olar ki, əksər regionlarında texnoloji və sənaye təyinatlı zonaların yaradılmasına önəm verilmişdir və bu proseslər davam etdirilməkdədir. Türkiyə iqtisadiyyatının uğurlarında bu innovatik elm və sənaye komplekslərinin də əhəmiyyəti az olmamışdır.

Polşanın XİZ təcrübəsi xüsusi maraq doğurmuşdur. Ölkədə "Xüsusi iqtisadi zonalar haqqında" Qanun 1994-cü ildə qəbul edilmişdir. 20 min hektar ərazini əhatə edən 14 Polşa XİZ-ində işlə təmin olunanların

sayı 115 min nəfərdən çox olmuşdur. Bir sıra Polşa XİZ-nin ümumi göstəriciləri cədvəl 2-də verilmişdir.

Cədvəl 2

**Polşa XİZ-nin bir sıra göstəriciləri**

| s/s | XİZ | İşləyənlərin sayı, nəfər | İnvestisiyaların həcmi, mln. dollar |
|---|---|---|---|
| 01 | "Katovitskaya" | 10822 | 899,3 |
| 02 | Melets "Avroparkı" | 8020 | 445,4 |
| 03 | "Melnitskaya" | 2066 | 280,3 |
| 04 | "Volbjixskaya" | 4381 | 166,1 |
| 05 | "Suvalskaya" | 2302 | 61,6 |
| 06 | "Lodzinskaya" | 1442 | 140,1 |
| 07 | "Tornobjeqskaya" | 2646 | 66,9 |
| 08 | "Kostşinsko-Slubitskaya" | 588 | 95,1 |
| 09 | "Tev" | 1368 | 34,0 |
| 10 | "Stroxovitse" | 1031 | 20,3 |
| 11 | "Varminsko-Mazurskaya" | 449 | 11,1 |
| 12 | "Slupskaya" | 437 | 7,9 |
| 13 | "Kamennoqurskaya" | 365 | 4,3 |
| 14 | "Krakovskiy texnoloji parkı" | 984 | 59,6 |
| Cəmi | | 115082 | 2292 |

**Mənbə:** Особые экономические зоны – база для развития бизнеса в Польше. Электронные ресурсы: http://finance-romance.ru/cz/aktuality-z-teritorii/specialni-ekonomicke-zony-zakladny-pro-rozvoj/19503/.

Cədvəl 2-dən göründüyü kimi, Polşa XİZ-nə yatırılan investisiyaların həcmi 2,3 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur.

Azərbaycanla ümumi sərhədlərə malik olan İranın XİZ təcrübəsi xüsusilə diqqəti cəlb edir. Bu ölkədə XİZ-ə rəhbərlik Ali Şura tərəfindən həyata keçirilir və bu sahə üzrə müvafiq qanunvericilik bazası 1993-ci ildən qüvvədə olan "Ticarət və İstehsal zonaları haqqında" Qanunla tənzimlənir. İranda 15-ə yaxın müxtəlif modifikasiyalı XİZ fəaliyyət göstərirlər. Ölkə XİZ-nin əsas xüsusiyyətlərinə 15 il ərzində mənfəətdən vergi tutulmamasını qeyd etmək olar. İranda XİZ statusuna malik zonalardan biri kimi Fars körfəzinin ən iri adalarının birində - Kəşmdə yerləşən XİZ-i göstərmək olar. Bu regiona yatırılan investisiyaların həcmi 2 milyard dollar səviyyəsində olmuşdur. Bir sıra İran XİZ-nin əsas göstəriciləri cədvəl 3-də verilmişdir.

Cədvəl 3

**İran XİZ-nin göstəriciləri**

| Zona | Yaranma tarixi | Ərazisi, kv. km. | Yerləşdiyi ərazi | Qonşu ölkələr | Beynəlxalq sərhədlər |
|---|---|---|---|---|---|
| Kiş | 1989 | 90 | Fars körfəzi | Fars körfəzinin ölkələri | Fars körfəzinin su sərhədləri |
| Kəşm | 1990 | 300 | Ormuz boğazı | Fars körfəzinin ölkələri | Fars körfəzinin su sərhədləri |
| Çabahar | 1991 | 145 | Cənub-Şərq | Pakistan,Oman, Fars körfəzinin ölkələri | Oman dənizinin su sərhədləri |
| Aras | 2003 | 1670 | Şimal-Qərb | Azərbaycan, Ermənistan | Azərbaycan - Naxçıvan |
| Arvand | 2004 | 173 | Cənub-Qərb | Fars körfəzinin ölkələri | İran və Küveyt |
| Ənzəli | 2003 | 32 | Şimal (Xəzər dənizi) | MDB, Qafqaz | Xəzər dənizinin su sərhədləri |

**Mənbə:** Iran's Free Trade - Industrial Secretariat website, http://www.freezones.ir/Default.aspx?tabid=137

Cədvəl 3-dən göründüyü kimi, İran XİZ-indən biri – "Aras" XİZ-i Azərbaycanla - Naxçıvanla, sərhəd zonasında təşkil olunmuşdur. 2003-cü ildən fəaliyyət göstərən bu XİZ-in ərazisi 1670 kv km-ə bərabərdir. İranın bu XİZ-i yaratmaqda əsas hədəflərindən biri ölkənin sərhədyanı ərazilərinin iqtisadi inkişafının təmin edilməsi, sosial və regional problemlərin həllinə əlavə stimulların verilməsi və qonşu ölkələrlə ticarət əməliyyatlarının genişləndirilməsidir.

### 5. MDB respublikalarında XİZ institutunun təşkili prosesləri

Rusiyanın ilk XİZ-indən olan Kalininqrad vilayətində 1991-ci ildə təşkil edilmiş "Yantar" XİZ-nin əhəmiyyətini qeyd etmək olar. Bu zona coğrafi baxımdan kifayət qədər əlverişli ərazidə güclü, iqtisadiyyata malik Qərbi Avropa ölkələrindən 500 km-lik məsafədə yerləşir. Rusiya hökuməti bu XİZ-i yaradarkən, regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və iqtisadi fəallığın artırılması ilə Qərbi Avropa ölkələrinə inteqrasiyanı genişləndirmək kimi strateji vəzifəni də bu zonanın

qarşısına qoymuşdu. Rusiyanın fəaliyyətdə olan bir qrup XİZ-nin bəzi göstəriciləri cədvəl 4-də verilmişdir.

Cədvəl 4

**Bir qrup Rusiya XİZ-nin göstəriciləri**

| XİZ | Tipləri | Yaranma tarixi | Yerləşmə ərazisi | Sahəsi, hektar | Prioritet fəaliyyət sahələri | İqtisadi nəticələr və proqnozlar |
|---|---|---|---|---|---|---|
| Dubna | Texniki-tətbiq | 21 dekabr 2005-ci il | Moskva vilayəti | 187,7 | İnformasiya-kommunikasiya və texnologiyaları | 10 minədək iş yeri |
| Zelenoqrad | Texniki-tətbiq | 21 dekabr 2005-ci il | Moskva vilayəti | 146,27 | Mikro və nanoelektronika | İnvestisiyaların həcmi 4,1 mlrd $ |
| Lipetsk | Sənaye-istehsal | 21 dekabr 2005-ci il | Lipetsk vilayəti | 1024,34 | Məişət və istehsal-sənaye təyinatlı cıhazqayırma | İnvestisiyaların həcmi 2 mlrd $-a yaxındır |
| Alabuqa | Sənaye-istehsal | 21 dekabr 2005-ci il | Tatarıstan Respublikası | 1997 | Avtomobil və kimya sənayesi üçün komplektləşdiricilər | İnvestisiyalar - 2,5 mlrd $; 18 min iş yeri |
| Tolyatti | Sənaye | 12 avqust 2010-cu il | Samara vilayəti | 660 | Avtomobil və avtokomponentlər, maşınqayırma məhsulları, tikinti materialları | İnvestisiyalar- 1,4 mlrd $; 11 min iş yeri |
| Baykal | Turizm | 3 fevral 2007-ci il | Buryatiya Respublikası | 3 283 | Sağlamlıq, ekoloji, ekskursiya turizmi | İnvestisiyalar – 1,4 mlrd $; ildə 2 mln. turist |

**Qeyd:** Cədvəl 4 müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 4-dən bu qənaətə gəlmək olar ki, Rusiyada son dövrlərdə əsas etibarı ilə elm və innovasiya tutumlu, sənaye və turizm təyinatlı XİZ-ə üstünlük verilmişdir.

Belarusda XİZ haqqında müvafiq Qanun 1998-ci ildə qəbul olunmuşdur. Qanunla bu ölkədə XİZ-in funksional tipi, zonanın yaradılma məqsədləri və XİZ-də investisiya fəaliyyətinin istiqaməti ilə müəyyən edilir və onlar istehsal, elmi-texnoloji, ixrac, ticarət, turizm-rekreasiya, sığorta, bank və sair fəaliyyət növlərinə əsaslana bilər. Hazırda Belarusda 6 XİZ fəaliyyət göstərir. Bu zonalarda 347-ə yaxın rezidentlər qeydə alınmışdır.

1990-cı ildə Qazaxıstanda XİZ haqqında müvafiq Qanun, 2011-ci ildə "Xüsusi İqtisadi Zonalar haqqında" müasir iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla yeni ölkə Qanunu qəbul edilmişdir. Qazaxıs-

tanda rəsmi olaraq 9 XİZ qeydiyyata alınmışdır və bunlardan 6-sı öz inkişaf səviyyəsinə görə diqqəti cəlb edir. Bu XİZ-ə "Aktau dəniz limanı" (nəqliyyat-logistika xidmətləri üzrə), "Yeni şəhər-Astana" (tikinti və tikinti materialları istehsalı, maşınqayırma, rezin və plastik kütlələr istehsalı), "Alma-ata informasiya texnologiyaları parkı" (İT sahəsinin inkişafı təyinatlı), "Ontustik" (Cənubi Qazaxıstan vilayətində tekstil sənayesinin inkişafı üzrə), "Milli Sənaye Neft-kimya texnoparkı" (Atırau vilayətində kömür xammalından səmərəli istifadə edilməsi və neft-kimya sahəsinin inkişafı üzrə) və "Burabay" (Astananın 200 km-liyində turizm klasteri formasında turizmin inkişafı məqsədi ilə) daxildirlər. 2014-cü ilin əvvəlinə ölkə XİZ-ində fəaliyyət göstərən rezidentlərin sayı 300-dən çox olmuşdur.

## 6. Azərbaycanda XİZ-in yaradılmasını şərtləndirən proseslərin təhlili

Azərbaycan iqtisadiyyatı son illərdə inkişaf dinamikasını qoruyub saxlaya bilmiş və qeyri-neft sektorunun inkişafı intensivləşməkdədir. Bununla belə, iqtisadi inkişafının davamlılığının və artım tempinin təmin edilməsi problemləri diqqəti cəlb etməkdədir (cədvəl 5).

Cədvəl 5

**Azərbaycan Respublikasında bir sıra əsas sosial-iqtisadi göstəricilərin dinamikası, əvvəlki ilə nisbətən faizlə**

| s/s | Göstəricilər | İLLƏR | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| 01 | ÜDM | 111,1 | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 | 105,0 | 100,1 | 102,2 | 105,8 |
| 02 | Sənaye istehsalı | 106,9 | 133,5 | 136,6 | 124,0 | 106,0 | 108,6 | 102,6 | 95,0 | 97,7 | 101,8 |
| 03 | Kənd təsərrüfatı məhsulu | 112,1 | 107,5 | 100,9 | 104,0 | 106,1 | 103,5 | 97,8 | 105,8 | 106,6 | 104,9 |
| 04 | Əsas kapitala investisiyalar | 102,6 | 116,6 | 115,2 | 123,8 | 131,8 | 81,6 | 121,2 | 127,3 | 118,5 | 115,1 |

**Mənbə:** Azərbaycanın statistik göstəriciləri 2014. ARDSK, Bakı, 2014. - 812 s.

Cədvəl 5-də yer almış göstəricilərə nəzər salsaq, 2013-cü ildə əvvəlki ilə nisbətən ÜDM-in artımı 5,8% təşkil etmişdir. Bununla belə, 2011-2013-cü illərdə sənaye istehsalının artım dinamikasında ciddi irəliləyişlərə nail olunmamışdır. Əsas kapitala investisiyalar isə 2013-cü ildə əvvəlki ilə nisbətən azalmışdır. XİZ-lə bağlı dünya təcrübəsində bir çox ölkələrin özlərinin milli iqtisadiyyatlarının və xüsusilə, sənaye istehsalının gücləndirilməsi, modernləşdirilməsi proseslərində bu kimi zonalardan əlavə təsirli mexanizm kimi səmərəli istifadə etməsi nəzərdən yayınmamalıdır.

## 7. Azərbaycanda XİZ-in yaradılmasının hüquqi əsasları

Azərbaycanda XİZ-in qanunvericilik bazasının formalaşdırılması proseslərinə ölkəmiz müstəqillik əldə etdikdən sonrakı dövrlərdə − 1990-cı illərin əvvəllərində başlanılmışdır. O vaxtlar ölkədə XİZ-in təşkili ideyası barədə diskussiyalar gedirdi və hətta həmin dövrdə BMT-nin Sənaye İnkişaf Təşkilatının dəstəyi ilə Sumqayıtda AIZ-in yaradılması istiqamətində layihə işlənib hazırlanmışdı. Bununla belə, həmin dövrdə XİZ-in yaradılması və fəaliyyəti mümkün olmamışdır. Yalnız əvvəldə qeyd edildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında” Fərmanı bu kimi zonaların yaradılması proseslərinin sürətləndirilməsi və qanunvericilik bazasının formalaşdırılmasına əhəmiyyətli təsir göstərmişdir.

Azərbaycanda XİZ-in yaradılmasında strateji prioritet kimi rəqabətqabiliyyətli və ixractəyinatlı məhsulların istehsalının təşkili daha çox diqqəti cəlb edir. Qanunun 18.2-ci maddəsinə əsasən XİZ-in ərazisində sahibkarlıq fəaliyyəti göstərən qeydiyyatdan keçmiş rezidentlər malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdikləri vəsaitin ümumi məbləğindən və satışdankənar gəlirlərdən sadələşdirilmiş vergi formasında 0,5% dərəcə ilə vergi hesablanılır və hər rübün sonunda 20 gündən gec olmayaraq, həmin məbləğin ödənilməsi təmin edilir. Ölkədə bu kimi zonalara daxil olan idxal malları üçün gömrük rüsumları və vergilər tutulmur. Ölkə Qanunun 20.2-ci maddəsinə əsasən dövlət XİZ yaradılarkən, onun ərazisində müəyyənləşdirilmiş xüsusi hüquqi rejimin XİZ-in fəaliyyət göstərəcəyi bütün müddət ərzində qüvvədə qalacağına zəmanət verir.

## 8. Azərbaycanda XİZ-in tətbiqi problemləri

Müasir dövrdə Azərbaycan iqtisadi və maliyyə çətinliklərinə tab gətirə bilən iqtisadi inkişaf modeli formalaşdıra bilmişdir. Son dünya

maliyyə böhranı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarına və maliyyə-kredit sistemlərinə güclü təsir göstərsə də, ölkəmizin iqtisadiyyatı bu böhranın fəsadlarına qarşı etibarlı immunitet nümayiş etdirə bilmişdir. Bununla belə, maliyyə mənbələrinin diversifikasiyalaşdırılması problemləri və ixracın həcminin azalması narahatlıq doğurmaya bilməz. Bu problemlərin həlli istiqamətində Azərbaycan iqtisadiyyatının innovasiyalaşdırılması və müasir iqtisadi mexanizmlərin tətbiqi zərurəti aktuallığı ilə seçilir.

XİZ rəqabətqabiliyyətli və yüksək standartlara malik məhsulların istehsalını artırmaqla, ölkənin ixrac potensialını gücləndirməklə yanaşı, sahibkarlığın inkişafında yeni stimullar formalaşdırmaqla, bu sahədə süni inzibati müdaxilələri və haqsız rəqabəti xeyli azaldar, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə müasir texnologiyaların və iri investisiya resurslarının gətirilməsinə əlavə stimullar verə bilər. Ölkəmizin iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq, şəkil 5-də verilən XİZ modellərinin tətbiqini daha məqsədəuyğun hesab edirik.




**Şəkil 5. Azərbaycanda təklif olunan XİZ-in prioritet modelləri və tətbiq sahələrinin təxmini sxemi (müəllif tərəfindən hazırlanmışdır)**

Bu təklif olunan XİZ-in tətbiqi regionların iqtisadi inkişaf istiqamətləri üzrə aparılan kompleks tədbirlərin şaxələndirilməsinə də əlavə töhfələr vermək imkanı yaradardı. Ölkəmizdə XİZ-in tətbiqinə mane olan problemlərin və onların ölkənin iqtisadi sisteminə tətbiqini şərtləndirən amillərin müasir dövrdə baxılması üçün əlverişli imkan yaranmışdır.

**9. Azərbaycanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsində XİZ amili**

Milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsində zəruri hesab edilən əsas iqtisadi mexanizmlərin əksəriyyəti XİZ-in qarşısında duran strateji vəzifələrlə oxşarlıq təşkil edir. Bu baxımdan, Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi problemləri aktuallığı ilə diqqəti cəlb etməkdədir. Dünya ölkələrinin bir çoxunda iqtisadi inkişafın sürətləndirilməsində və ixrac potenisalının gücləndirilməsində XİZ əsas iqtisadi mexanizmlərdən biri kimi mühüm rol oynaya bilmişdir.

Azərbaycanın iqtisadi təhlükəsizliyinin ən mühüm istiqamətlərindən biri olan ərzaq təhlükəsizliyinin tam təmin edilməməsi üzrə narahatçılıq bu istiqamət üzrə mühüm dövlət proqramlarında da öz əksini tapmışdır. Məsələn, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda qeyd olunmuşdur ki, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Qeyd olunan mülahizələrə və mühüm dövlət Proqramında yer almış problemlərin təhlilinə əsaslansaq, görərik ki, dünyanın əksər ölkələrində xarici ticarət fəaliyyəti ilə bağlı iqtisadi inkişaf prioritetlərinin reallaşdırılmasında, ölkə iqtisadiyyatının inkişafının intensivləşdirilməsində, mühüm ərzaq növləri üzrə ölkənin daxili tələbatının təmin edilməsində, xüsusilə, bu istiqamətlərdə idxaləvəzedici istehsal sahələrinin təşkilində XİZ-in müxtəlif modellərindən səmərəli istifadə olunmuşdur.

**10. Azərbaycanın milli iqtisadiyyatının innovasiyalaşdırılmasında və ixrac potensialının yüksəldilməsində XİZ effektiv iqtisadi mexanizm kimi**

Müasir dövrdə milli iqtisadiyyatların innovasiyalaşdırılması dünya iqtisadiyyatının sürətlə qloballaşması fonunda mühüm əhəmiyyət kəsb edir. Ölkədə hasilat sahələri ilə yanaşı, bir sıra digər milli iqtisadiyyat sahələrinə xarici investisiyaların və xüsusilə, əhəmiyyətli

səviyyədə daxili investisiyaların yönəldilməsi tendensiyaları güclənməkdədir. Bunlarla bərabər, ölkənin sənaye potensialının modernləşdirilməsi proseslərinin intensivləşdirilməsi strateji vəzifələr kimi qarşıda durur.

Qeyd edək ki, 2009-2013-cü illər ərzində Azərbaycanda innovasiyalara və xüsusilə, sənaye sahəsində innovasiyalara mane olan əsas və ya həlledici amillər sırasında, bu tip müəssisələrin özlərinin pul vəsaitlərinin kifayət qədər olmaması, dövlət tərəfindən maliyyə yardımının artırılmasına zərurətin qalması, yeni innovasiya məhsullarına sifarişlərin məhdudluğu, innovasiya yeniliklərinin dəyərinin yüksək olması və riskliyi kimi amillər yer almışdır.

Azərbaycanda 2007-2013-cü illər ərzində əhəmiyyətli dəyişilmiş və yeni tətbiq olunmuş sənaye məhsullarının həcmi 14,1 dəfə artsa da, 2013-cü ildə bu rəqəm cəmisi 11,6 mln. manat olmuşdur (bax: cədvəl 6).

Cədvəl 6

**Azərbaycan Respublikasında sənaye müəssisələrinin yenilik səviyyəsinə görə innovasiya məhsulunun həcmi, min manat**

| | Əhəmiyyətli dəyişilmiş və ya yeni tətbiq olunmuş məhsul | | | | | Təkmilləşdirilmiş məhsul | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2007 | 2010 | 2011 | 2012 | 2013 | 2007 | 2010 | 2011 | 2012 | 2013 |
| Sənaye, cəmi | 826,3 | 4384 | 13163 | 23052 | 11634 | 399,4 | 2029 | 14403 | 1045 | 883,1 |
| Mədənçıxarma sənayesi | 208,5 | - | 2073 | 396,1 | 325,9 | - | - | 10430 | 235,8 | - |
| Emal sənayesi | 617,8 | 4384 | 11090 | 22656 | 11308 | 399,4 | 2029 | 3973 | 809,6 | 883,1 |
| o cümlədən: | | | | | | | | | | |
| Toxuculuq sənayesi | - | - | - | - | 8933 | - | 1717 | - | - | - |
| Kimya sənayesi | - | - | - | 3049 | 465,5 | - | 311,4 | 1969 | 21,3 | 40,7 |
| Kompyuter və digər elektron avadanlıqların istehsalı | 262,5 | - | 5681 | 20,4 | - | - | - | 1044 | - | - |
| Maşın və avadanlıqların istehsalı | 75,6 | 1262 | - | 890,3 | 238,4 | 399,4 | - | 105,9 | 686,2 | 798,3 |
| Mebellərin istehsalı | - | 22,7 | - | - | - | - | - | - | - | - |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 297,7 | 1311 | 1295 | 496,8 | 511,6 | - | - | - | 102,1 | 44,1 |

**Mənbə:** Azərbaycanın sənayesi 2014. Statistik məcmuə. ARDSK, Bakı, 2014.- 340 s.

Həmin dövr ərzində ölkədə təkmilləşdirilmiş innovasiya təyinatlı sənaye məhsullarının həcmi 2,2 dəfə artsa da, bu rəqəm 2013-cü ildə cəmisi 883,1 min manat həcmində olmuşdur. Göründüyü kimi, ölkədə innovatik proseslərin, xüsusilə, ölkənin sənaye sahələrinin yeniləşməsi və innovasiya məhsulları istehsalının çeşidinin artırılması tədbirlərinin əhəmiyyətli səviyyədə genişləndirilməsi zərurəti qalmaqdadır və XİZ bu proseslərdə özlərinin məhsuldar iqtisadi mexanizm xüsusiyyətləri ilə əhəmiyyətli rol oynamaq potensialına malikdir. Bu baxımdan, dünya ölkələrinin XİZ təcrübəsində belə problemlərin həllində və bütövlükdə elm-innovasiya təyinatlı strateji hədəflərin reallaşdırılmasında XİZ-dən səmərəli istifadə bu kimi zonalardan Azərbaycanda da fəal istifadəni şərtləndirir.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 2006-2013-cü illər üçün dinamikasının təhlilinə əsaslansaq, ölkəmiz 100-ə yaxın dünya dövlətlərinə ixractəyinatlı məhsullar göndərməsinə baxmayaraq, Azərbaycanla ixrac əlaqələri olan ölkələrin əksəriyyətinə yola salınan malların həcminin cüzi olması və iri ixrac tərəfdaşlarının əsasən neft və ya neft məhsulları ilə bilavasitə bağlı olması faktı da nəzərdən qaçmamalıdır. Bunu Azərbaycanın idxal və ixracının quruluşunda yer almış əsas məhsul bölmələrinin təhlilindən görmək mümkündür (cədvəl 7).

Cədvəl 7-in təhlilinə baxsaq, görərik ki, Azərbaycanda mineral məhsullar üzrə ixrac 2006-cı ildə 84,6 % təşkil etdiyi halda, bu göstərici 2013-cü ilin yekununda 92,7 % olmuşdur. Bununla bərabər, bir sıra rəqabətqabiliyyətli iqtisadiyyat sahələrinin ixrac potensialından zəif istifadə olunur. Məsələn, ölkədə kimya məhsullarının ümumi ixracda payı 2006-cı ildəki 2,1%-dən 2013-cü ildə 0,7 %-ə qədər azalmışdır. Halbuki, məhz Azərbaycana kimya məhsullarının idxalı 2013-cü ildə ölkənin ümumi idxalında 8,7 % paya malikdir.

Şəkil 6-da isə 2013-cü il üzrə Azərbaycan Respublikasında ixracın tam quruluşu öz əksini tapmışdır. Şəkil 6-dan göründüyü kimi, ölkə ixracının quruluşunda qeyri-neft sektorunun əsas sənaye sahələrinin payı kifayət qədər aşağıdır. Azərbaycanda müasir dövrdə sənayeləşmə proseslərinin intensivləşməsinə baxmayaraq, bir çox yüksək innovasiya təyinatlı və elmtutumlu mühüm sənaye sahələrinin modernləşdirilməsi və yaxud yenidən qurulması tədbirlərinin sürətləndirilməsinə zərurət vardır (kimya və neft-kimya, cihazqayırma, neft-qaz və neft-kimya maşınqayırması, yüngül sənaye sahələri və s.).

Cədvəl 7

**Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxal və ixracın quruluşu, ümumi həcmdə xüsusi çəkisi, faizlə**

| s/s | Məhsul bölmələri | İdxal | | | | | İxrac | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2006 | 2010 | 2011 | 2012 | 2013 | 2006 | 2010 | 2011 | 2012 | 2013 |
| Cəmi: (o cümlədən) | | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 1 | Yeyinti məhsulları və diri heyvanlar | 7,6 | 13,1 | 10,1 | 9,9 | 9,9 | 3,6 | 1,9 | 2,1 | 2,6 | 2,7 |
| 2 | İçkilər və tütün | 2,1 | 4,0 | 3,0 | 3,7 | 3,7 | 0,6 | 0,1 | 0,1 | 0,1 | 0,2 |
| 3 | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 2,9 | 2,7 | 2,7 | 3,5 | 3,0 | 3,2 | 0,1 | 0,1 | 0,3 | 0,2 |
| 4 | Mineral yanacaq, sürtkü yağları, analoji materiallar | 11,6 | 1,1 | 0,9 | 0,9 | 1,3 | 84,6 | 94,2 | 94,4 | 93,1 | 92,7 |
| 5 | Heyvan və bitki mənşəli yağlar, piylər | 0,7 | 1,3 | 0,8 | 1,0 | 0,6 | 0,8 | 0,7 | 0,5 | 0,8 | 0,8 |
| 6 | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | 5,8 | 8,9 | 8,8 | 10,0 | 8,7 | 2,1 | 0,6 | 0,9 | 1,0 | 0,7 |
| 7 | Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | 17,2 | 21,6 | 19,7 | 21,5 | 18,1 | 2,8 | 0,8 | 1,2 | 1,2 | 1,1 |
| 8 | Maşınlar və nəqliyyat avadanlıqları | 46,2 | 40,6 | 48,4 | 41,7 | 39,0 | 1,9 | 1,0 | 0,2 | 0,4 | 0,7 |
| 9 | Müxtəlif sənaye məmulatları | 5,8 | 6,6 | 5,3 | 7,7 | 7,0 | 0,4 | 0,2 | 0,1 | 0,2 | 0,6 |
| 10 | Digər kateqoriyalara daxil edilməyən mallar | 0,1 | 0,1 | 0,3 | 0,1 | 8,7 | - | 0,4 | 0,4 | 0,3 | 0,3 |

**Qeyd:** Cədvəl 7 ARDSK-nin "Azərbaycanın xarici ticarəti"-2014 statistik məcmuəsi əsasında müəllif tərəfindən hazırlanmışdır.




**Şəkil 6. 2013-cü il üzrə Azərbaycan Respublikasında ixracın quruluşu, faizlə (ARDSK-nin "Azərbaycanın xarici ticarəti"-2014 statistik məcmuəsi əsasında müəllif tərəfindən hazırlanmışdır).**

Digər tərəfdən, ölkənin kənd təsərrüfatı sahələrinin və aqrosektorun ixrac potensialından daha səmərəli istifadə edilməsi diqqətdən qaçmamalıdır. Bu istiqamətdə ixtisaslaşdırılmış ixractəyinatlı iri fermer təsərrüfatlarının və aqrokomplekslərin təşkilinə zərurət qalmaqdadır. Bundan əlavə, əsaslı ixrac potensialına malik bir çox iqtisadi rayonlarda mövcud imkanlardan səmərəli istifadə olunmaması da diqqət çəkir. Belə ki, ölkəmizin müxtəlif iqtisadi rayonlarında əlverişli torpaq və iqlim resurslarının, kifayət qədər əmək ehtiyatlarının mövcudluğuna baxmayaraq, bu regionlarda innovatik və müasir texnologiyalar əsaslı ixractəyinatlı iri istehsal sahələrinin və aqrokomplekslərin sayı olduqca azdır. Bu proseslərdə bir sıra XİZ modellərinin strateji məqsədlər üçün tətbiq edilməsi həmin iqtisadi rayonların ixrac potensialının artırılmasına əlavə stimullar verməklə yanaşı, bu regionlarda xarici ticarət iştirakçılarının sayının və coğrafiyasının genişlənməsinə, onların regional və beynəlxalq inteqrasiya kanallarına çıxışının fəallaşmasına və bütövlükdə regionun iqtisadi fəallığının yüksəlməsinə ciddi töhfələr verə bilərdi.

## 11.Azərbaycanda XİZ-in təşkili və fəaliyyəti üzrə Milli İqtisadi Strategiyanın əhəmiyyəti

Hər hansı bir milli iqtisadi konsepsiyanın və ya strategiyanın qəbul edilməsi, bu mühüm iqtisadi vəzifələrin gerçəkləşdirilməsi sistemli yanaşma və optimal təcrübi reallaşdırma proseslərinin təşkilini şərt-

